## Azərbaycan iqtisad elminin görkəmli nümayəndəsi



Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, böyük vətəndaş alim və şəxsiyyət olan akademik Asəf Abbasqulu oğlu Nadirov yaşasaydı indi onun 90 yaşı tamam olacaqdı. O, 1929-cu il mart ayının 13-də qədim və zəngin tarixi, mədəniyyət və çoxəsirlik dövlətçilik ənənəsi olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Cəlilkənd kəndində Naxçıvan mahalında öz pak əməlləri, vətənpərvərliyi və yüksək insani keyfiyyətləri ilə hamının dərin hörmətini qazanmış, el ağsaqqalı Abbasqulu kişinin ailəsində dünyaya göz açmışdır. Belə bir ailədə doğulub boya başa çatmış Asəf Nadirov atası Abbasqulu kişinin adına layiq böyümüş, öz ağlı, zəkası və zəhmətsevərliyi ilə Azərbaycan Elmlər Akademiyasında çalışdığı 62 il ərzində pillə-pillə yüksələrək, kiçik elmi işçi vəzifəsindən Azərbaycan Elmlər Akademiyasının akademik-katibi vəzifəsinə, coğrafiya elmləri namizədliyindən iqtisad elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi kimi yüksək vəzifə, elmi adlar və rütbələrə yiyələnmişdir. O, bu vəzifələrə, elmi adlara və rütbələrə yüksəldikcə sanki sadələşmiş, necə deyərlər bar verdikcə başını aşağı salmış, xalqının və bütün dost-tanışlarının sevimlisinə çevrilmişdir. Professor Asəf Nadirov bütün şüurlu həyatını doğma Azərbaycanımızın elminə və təhsilinin inkişafına sərf etmişdir. O, 1936-cı ildə doğma Yenkicə kəndindəki orta məktəbə daxil olmuş və 1946-cı ildə oranı bitirib təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlib, Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə qəbul olmuşdur. 1951-ci ildə Universiteti əla qiymətlərlə bitirən Asəf Nadirovu Universitetin rəhbərliyi coğrafiya kafedrasında assistent vəzifəsində saxlamışdı. Ancaq az sonra o, gənc mütəxəssis kimi diqqəti cəlb etmiş və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti yanında Respublika inzibati-ərazi bölgüsü üzrə məsləhətçi vəzifəsinə irəli çəkilmişdir. İki ilə yaxın bu vəzifədə çalışdıqdan sonra o, 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun aspiranturasına daxil olmuş və 1953-cü ildə təhsilini davam etdirmək üçün Moskva şəhərinə - SSRİ Elmlər Akademiyası Coğrafiya İnstitutuna ezam olunmuşdur. Asəf Nadirov görkəmli alimlərin çalışdığı bu elm ocağında coğrafiya elminin sirlərinə yiyələnmiş və 1956-cı ildə həmin İnstitutda **“Naxçıvan MSSR: iqtisadi-coğrafi səciyyəsi”** mövzusunda namizədlik dissertasiyasını müdafiə edib 27 yaşında coğrafiya elmləri namizədi elmi dərəcəsi almışdır. Gənc mütəxəssis elə həmin il Bakı şəhərinə qayıtmış və bir qədər Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunda kiçik elmi işçi vəzifəsində işlədikdən sonra 1957-ci ilin əvvəlində Akademiyanın İqtisadiyyat sektoruna (bu sektor 1958-ci ilin aprel ayının 14-dən İqtisadiyyat İnstitutuna çevrilmişdir) kiçik elmi işçi vəzifəsinə işə keçərək, burada elmi fəaliyyətə başlamış və ömrünün sonunadək bu elm ocağı ilə əlaqəsini kəsməmişdir.



*© Şahbaz Muradov. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Asəf Nadirovun elmi və yaradıcılıq fəaliyyətini bu cür təsnifləşdirmək mümkündür:**

- ✓ ***1958-ci ilin ikinci yarısından 1964-cü ilədək İqtisadiyyat İnstitutunun "Sosialist sənayesinin yerləşdirilməsi" şöbəsinin müdiri;***
- ✓ ***1964-1981-ci illərdə (17 il) İnstitutun elmi işlər üzrə direktor müavini;***
- ✓ ***1981-1997-ci illərdə (17 il) Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü və baş elmi katibi;***
- ✓ ***1997-ci ildən ömrünün sonunadək isə Azərbaycan Elmlər Akademiyasının müşaviri.***

Akademik A.Nadirov bütün tutduğu vəzifələrdə işləyərkən:

- böyük elmi-yaradıcılıq və elmi-təşkilatçılıq qabiliyyətinə malik olduğunu sübut etmiş;
- geniş ictimai-siyasi və təşkilati iş aparmış;
- elmi kadrların seçilməsi, hazırlanması və yerləşdirilməsində müstəsna rol oynamışdır.

Akademik Asəf Nadirov eyni zamanda uzun illər ərzində, xüsusilə də 1996-2006-cı illərdə ictimai əsaslarla Azərbaycan EA İqtisadiyyat İnstitutunda regionların inkişafı ilə bağlı şöbədə yerinə yetirilən elmi-tədqiqat işlərinə elmi rəhbərlik etmişdir. O, 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü (akademik) seçilmişdir. A.Nadirov hansı vəzifələrdə işləməsindən asılı olmayaraq öz elmi taleyini həmişəlik Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu ilə bağlamış, eyni zamanda həm də bir coğrafiyaşünas alim kimi Coğrafiya İnstitutu ilə əlaqəsini kəsməmiş və bu elm sahəsində də xeyli uğurlar qazanmışdır. Təsadüfi deyildir ki, o, iqtisadi coğrafiya sahəsindəki tədqiqat əsərlərinə görə hələ:

- 1969-cu ildə SSRİ Coğrafiya Cəmiyyətinin Fəxri Fərmanı;
- 1973-cü ildə Fəxri diplomu ilə təltif olunmuş;
- 1985-ci ildə isə Kiyev şəhərində SSRİ Coğrafiya Cəmiyyətinin VIII Qurultayına nümayəndə seçilmişdir.

Ancaq A.Nadirovun bütün elmi yaradıcılıq fəaliyyəti dövrünün ana xəttini Azərbaycan Respublikası sənayesinin inkişafı, onun sahə və ərazi quruluşunun təkmilləşdirilməsi və səmərəli yerləşdirilməsi problemləri təşkil etmişdir. Akademik A.Nadirov hələ keçən əsrin 60-cı illərində respublika iqtisadçıları arasında ilk dəfə olaraq Azərbaycan şəhərlərinin inkişafı problemlərinin tədqiqinə də xeyli qüvvə və vaxt sərf etmiş, perspektivli xırda və orta şəhərləri müəyyənləşdirmiş və onların ən perspektivlərinin regional mədəni-iqtisadi mərkəz kimi formalaşmasının zəruriliyini əsaslandırmışdır. Bu ideyalar sonrakı illərdə respublikada düzgün regional siyasət yeridilməsində, xırda və orta şəhərlərin inkişafında xeyli müsbət rol oynamışdır. A.Nadirov perspektivli xırda və orta şəhərlərin elə səviyyədə inkişaf etdirilməsi ideyasını irəli sürmüşdür ki, bu səviyyədə onlar regionların yerli təbii və əmək ehtiyatlarından və imkanlarından tam və səmərəli istifadəyə xidmət edə bilsin.

Respublikadaxili iqtisadi rayonlaşdırma və ərazi planlaşdırmanın təkmilləşdirilməsi məsələlərinin kompleks şəkildə tədqiqi də A.Nadirovun elmi yaradıcılığında mühüm yer tutmuşdur. O, apardığı tədqiqatları ümumiləşdirərək və ərazi-istehsal komplekslərinin ərazisini əsas götürərək hələ 1958-ci ildə həmkarı B.Əbdürəhmanov və başqaları ilə birlikdə Azərbaycanın iqtisadi rayonlaşmasının təkmilləşməsi ideyasını irəli sürmüş və işləyib



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hazırladığı elmi prinsipləri rəhbər tutaraq respublikamızda ilk dəfə olaraq yeni iqtisadi rayonlar şəbəkəsinin yaradılmasını təklif etmişdir. O, sonralar da bu problemə öz yaradıcılığında həm başqa müəlliflərlə birlikdə, həm də ayrılıqda dəfələrlə müraciət etmişdir.

***Prof. A.Nadirov keçən əsrin 60-cı illərinin əvvəllərində həmin ərazi-istehsal komplekslərini tədqiq edərək ilk dəfə olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi rayon statusunun tələblərinə uyğun gəlmədiyini, ona cavab vermədiyini sübut etmiş və onun Ağdam-Xankəndi iqtisadi rayonunun tərkibinə daxil edilməsi fikrini irəli sürmüşdür. Ancaq çox təəssüflər olsun ki, onun bu əsaslandırılmış baxışları həmin illərdə müvafiq dairələrdə düzgün anlaşılmamış və reallaşmamışdır. Bu baxışlar reallaşaydı, yəqin ki, indiki Qarabağ faciəsi də bəlkə baş verməzdi.***

Keçən əsrin 60-cı illərin sonu və 70-ci illərin əvvəllərində A.Nadirovun təşəbbüsü və bu sətirlərin müəllifi ilə yanaşı A.Ələsgərov və Z.Səmədzadənin müəllifliklər ilə o vaxtlar respublikamızın ictimai-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış "Azərbaycan Kommunisti" jurnalının 1968-ci il 11-12-ci; 1969-cu il 2-8-ci və 1970-ci il 1-ci nömrələrində ayrı-ayrılıqda götürüldükdə respublikamızın bütün iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının vəziyyətinin təhlilinə və onların inkişaf perspektivlərinə həsr edilmiş silsilə məqalələr çap edilmişdir. Həmin məqalələr ölkəmizin regionlarının iqtisadiyyatının dərindən öyrənilməsində mühüm rol oynamış və o vaxtki, ölkə rəhbərlərinin diqqətini özünə cəlb etmişdir. Prof. A.Nadirov bu sahədə çoxsaylı fundamental kitablar və elmi məqalələr yazmış və başqa hansı problemi tədqiq etmişdirsə, onun diqqət mərkəzində həmişə sənayenin inkişafı və səmərəli yerləşdirilməsi məsələsi durmuşdur. Akademik A.Nadirov hələ özünün ilk tədqiqatlarında respublikada ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün geniş təbii imkanların, əmək resurslarının, əhalinin böyük istehsal təcrübəsi və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır. Azərbaycanda qənd istehsalının yaradılması ideyasını da ilk dəfə A.Nadirov irəli sürmüş və onun heyvandarlığın yem bazasının möhkəmlənməsi sahəsində də mühüm rol oynaya biləcəyini işıqlandırmışdır. Burada xüsusi olaraq onu da qeyd etmək istərdik ki, hələ keçən əsrin 60-cı illərinin əvvəllərində A.Nadirovun rəhbərliyi və fəal iştirakı ilə Azərbaycanın yeyinti sənayesinin inkişafı və onun ölkə ərazisində düzgün yerləşdirilməsi problemləri kompleks halında tədqiq olunmuşdu. Kollektiv monoqrafiya kimi nəşr edilən bu tədqiqat işi ("Azərbaycanın yeyinti sənayesi". Elm, 1963, 437 səh.) həmin dövrdə ölkəmizin iqtisad elmində mühüm nailiyyət kimi qeyd edilməklə respublika rəhbərlərinin diqqətindən kənarda qalmamışdır. Sonrakı illərdə Azərbaycanda yeyinti sənayesinin inkişaf proqnozları işlənib hazırlanarkən həmin monoqrafiyanın materiallarından geniş istifadə olunmuş və onun əsasında Bakıda keçmiş SSRİ-nin tanınmış iqtisadçı alimlərinin iştirakı ilə böyük elmi-praktiki konfrans keçirilmişdir. Keçən əsrin 50-ci illərinin axırları və 60-cı illərinin ortalarınadək olan dövrdə apardığı gərgin elmi-tədqiqat işlərinin



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

nəticəsi olaraq A.Nadirov 1968-ci ildə **"Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri"** mövzusunda elmlər doktorluğu dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmiş və həmin dissertasiya işində irəli sürülüb və əsaslandırılmış elmi müddəalar, təklif və tövsiyələrin bir çoxu istehsalatda öz tətbiqini tapmışdır. Onların bir çoxu bu gün də öz aktuallığını itirməmişdir.

A.Nadirov Azərbaycan dövlətinin məhsuldar qüvvələrin ölkə ərazisində daha səmərəli yerləşdirilməsi, sənayenin sahə və ərazi quruluşunun mütərəqqi istiqamətdə təkmilləşdirilməsi üçün gördüyü tədbirləri əldə rəhbər tutaraq keçən əsrin 70-ci illərində öz tədqiqatlarını daha da dərinləşdirmiş və 1976-cı ildə nəşr etdirdiyi **"Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri" adlı iri həcmli monoqrafiyasında (Bakı, Elm, 1976, ç.v.) ümumiləşdirmişdir.** Bu kitab o zaman elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş və mühüm elmi nəticə kimi SSRİ EA Rəyasət Heyətinin illik hesabatına daxil edilmişdir. Bu kitabda respublikadaxili iqtisadi rayonlarda sənayenin inkişaf etdirilməsinin obyektiv əsaslarına aid zəngin materiallar təhlil edilib ümumiləşdirilmiş və həmin dövr üçün çox aktual olan belə bir düzgün nəticə çıxarılmışdır ki, respublikamızın iqtisadi rayonlarında sənayenin sonrakı kompleks və səmərəli inkişafı üçün əlverişli zəmin yaranmışdır. A.Nadirov öz əsərində respublikadaxili iqtisadi rayonlarda sənayenin inkişaf səviyyəsinin müəyyən edilməsi metodikasını, sənaye sahələrinin iqtisadi təyinatına görə qruplaşdırılması və inkişaf səviyyəsinin müəyyən edilməsi üsullarını vermiş, iqtisadi rayonlarda sənayenin gələcəkdə daha səmərəli yerləşdirilməsi və inkişafı üçün elmi və təcrübəvi və əhəmiyyəti olan bir sıra təklif və tövsiyələr irəli sürmüşdür. Keçən əsrin 90-cı illərinin əvvəllərində isə respublikanın iqtisadi rayonlaşmasının təkmilləşdirilməsi məsələsi A.Nadirovun yaxından iştirakı ilə Azərbaycan EA İqtisadiyyat və Coğrafiya İnstitutlarının, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzinin və başqa müvafiq elm və tədris müəssisələrinin yüksək ixtisaslı mütəxəssisləri ilə birlikdə müzakirə olunmuş və buradan irəli gələn bir sıra təkliflər verilmişdir. Son nəticədə isə onun bir sıra mütəxəssislərlə (B.Ə.Budaqov, Ə.X.Nuriyev, S.K.Hüseynov, T.Q.Həsənov və s.) birlikdə hazırladığı yeni iqtisadi coğrafi rayonlaşma şəbəkəsi təklif olunmuşdur. Təklif olunan yeni iqtisadi rayonlaşma şəbəkəsi 1996-cı ildən başlayaraq Təhsil Nazirliyinin sərəncamı ilə orta məktəblərdə coğrafiya fənninin tədrisində, habelə elmi-tədqiqat işlərində istifadə olunmağa başlanmışdır. A.Nadirovun tədqiqat əsərlərində respublikada sənayenin tarixi inkişaf mərhələləri də müəyyən edilmiş və müxtəlif xarakterli zəngin statistik materialların sistem halında təhlili əsasında hər bir mərhələdə onun ərazi üzrə yerləşməsi və inkişafı vəziyyəti qiymətləndirilmişdir. Müəllif belə bir həqiqəti sübut etmişdir ki, Azərbaycan sənayesinin iqtisadi rayonlarda inkişafında əsas irəliləyiş Böyük Vətən müharibəsindən sonrakı dövrdə və xüsusilə də keçən əsrin 70-80-ci illərdə baş vermişdir. Onu da qeyd etmək lazımdır ki, A.Nadirovun əsərlərində keçən əsrin 70-80-ci illərində Azərbaycan sənayesinin inkişafı və ərazi üzrə yerləşdirilməsinin vəziyyəti ətraflı təhlil edilmiş, onun mövcud inkişaf səviyyəsi aşkara çıxarılmış, ümumi iqtisadi səmərəlilik, mütərəqqi sahə quruluşu və yerli xammaldan ardıcıl və kompleks istifadə edilməsi baxımından qiymətləndirilmişdir. Onun əsərlərində respublika sənayesinin yaxın və uzaq gələcəkdə iqtisadi rayonlar üzrə daha dərindən ixtisaslaşması və optimal yerləşdirilməsi istiqamətləri işıqlandırılmış, bu problemlə bağlı bir sıra məsələlərin həllinə aid mülahizələr öz dolğun əksini tapmışdır. Müəllif, habelə öz tədqiqatlarında sənayedə elmi-texniki və texnoloji tərəqqi problemlərinə də həmişə xüsusi diqqət yetirmişdir. O, keçən əsrin 80-ci illərində **"Azərbaycan SSR-də Elmi-Texniki Tərəqqinin Kompleks Proqramı və onun sosial-iqtisadi nəticələri"**nin işlənib hazırlanmasının əsas rəhbərlərindən və icraçılarından biri olmuşdur. Bu sahədə görülmüş işlər keçmiş SSRİ EA, SSRİ Dövlət Plan və Tikinti Komitələri tərəfindən müsbət



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

qiymətləndirilmiş və həmin təşkilatlar tərəfindən respublikanın bir çox alimləri ilə yanaşı prof. A.Nadirova da təşəkkür elan edilmişdir. A.Nadirovun sənaye sahəsində apardığı tədqiqatlarının bu və ya digər nəticələri müxtəlif dövrlərdə ölkəmizdə məhsuldar qüvvələrin, o cümlədən sənayenin inkişafı, onun ərazi təşkilinin planlaşdırılması və proqnozlaşdırılmasının işlənib hazırlanmasının əsasını qoyulmuşdur. Keçən əsrin 90-cı illərində A.Nadirovun elmi-tədqiqat fəaliyyəti daha geniş və çoxcəhətli xarakter daşımışdır. Həmin illərdə onun yaradıcılığının əsas istiqamətini müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının bazar münasibətlərinə keçməsi xüsusiyyətləri və mərhələləri, iqtisadi müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi ilə əlaqədar məsələlərin tədqiqi təşkil etmişdir. O, keçən əsrin sonlarında özünün bir sıra əsərlərində Azərbaycan iqtisadiyyatının düşdüyü dərin böhranlı vəziyyətin təhlilinə, onun səbəbləri və xarakterinin açılmasına xüsusi yer verilmişdir. Ömrünün son illərində onun apardığı elmi-tədqiqat işlərində, dövri mətbuatda çap etdirdiyi məqalə və kitablarında Azərbaycanın gələcək iqtisadi inkişafına bir baxış, iqtisadi islahatların Çin yolu, mülkiyyət münasibətlərinin formalaşması, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, bu istiqamətdə neft kontraktlarının mahiyyət və əhəmiyyətinin açılması, iqtisadiyyatın gələcək inkişaf yollarının müəyyənləşdirilməsi, iqtisadi islahatlar sahəsində qabaqcıl ölkələrin təcrübəsindən istifadə edilməsi və sair bu kimi aktual məsələlər mühüm yer tutmuşdur.

Akademik A.Nadirovun 2001-ci ildə “Elm” nəşriyyatında çap edilmiş **“Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri”** adlı monoqrafiyası da bu baxımdan diqqəti cəlb edir. Onun bu sətirlərin müəllifi ilə birlikdə redaktoru olduğu və müəllifliyi ilə çap olunmuş **“Azərbaycan iqtisadiyyatı”** (Kollektiv monoqrafiya. Xaricdə yaşayan azərbaycanlılar üçün, Bakı, “Elm” 2003-cü il) adlı kitab da maraqlı tədqiqat əsəri kimi diqqəti cəlb edir. Akademik Asəf Nadirovla 1961-ci ildən 2014-cü ilin əvvəllərinədək olan 53 il ərzində yaxın təmasda olan və onunla birlikdə işləyən bir elm xadimi kimi yaxşı bilirəm ki, o, elmi və elmi-pedaqoji axtarışlarla bağlı, zəhmətlə dolu narahat və zəngin bir həyat yolu keçmişdir. Onun keçdiyi həyat yolu da, yaradıcılığı da, respublika iqtisadiyyatının inkişafı problemlərinin tədqiqində qeyri-standart yanaşma metodlarından istifadə etməsi də öz orijinallığı ilə çoxlarından fərqlənir. Məhz bu orijinallığı, respublika iqtisadiyyatının problemlərinə dərindən bələd olması, onların həllinə obyektiv yanaşması və zəhmətsevərliyi A.Nadirova respublika iqtisadiyyatının ən kəskin və aktual problemlərindən biri olan məhsuldar qüvvələrin ölkə ərazisində inkişafı və səmərəli yerləşdirilməsinə dair sanballı tədqiqat əsərləri yazmasına və bu sahədə öz məktəbini yarada bilməsinə imkan vermişdir. Akademik A.Nadirov Azərbaycanın iqtisad elminin aktual nəzəri-metodoloji və təcrübi problemlərinin tədqiqinə həsr olunmuş 500-dən çox elmi əsərin, o cümlədən 20 monoqrafiya, kitab və broşurun müəllifidir. Bu əsərlərin bir qismi keçmiş İttifaqda və başqa xarici ölkələrdə nəşr olunmuşdur. **Görkəmli iqtisadçı və həm də coğrafiyaşünas** alim kimi Asəf Nadirovun apardığı elmi-tədqiqat işlərinin əsas nəticələri, bir qayda olaraq həmişə dövlət və hökumət orqanlarının, müvafiq təşkilatların diqqətini özünə cəlb etmiş və bir çox hallarda onların əksəriyyəti təhriri məruzə və təkliflər formasında tətbiq edilmək üçün qeyd edilən orqanlara təqdim edilmişdir. Asəf müəllim uzun müddət keçmiş Dövlət Plan Komitəsində (İqtisadiyyat Nazirliyində), Respublikanın Ali Sovetində müxtəlif komissiyaların üzvü və bir sıra mühüm ümumrespublika tədbirlərinin iştirakçısı kimi də öz fikir və mülahizələrinin müvafiq orqanlara çatdırmış və əksər hallarda onların reallaşmasına nail olmuşdur.

Akademik A.Nadirovun yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində də əvəzsiz xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 6 elmlər doktorluğu və 40-dan çox iqtisadiyyat və iqtisadi coğrafiya üzrə fəlsəfə doktorluğu dissertasiyası işləri müdafiə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olunmuşdur. Akademik A.Nadirov uzun illər ərzində bir çox ictimai vəzifələrin yerinə yetirilməsində də fəal iştirak etmişdir:

- O, 1966-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Xəbərləri "İqtisadiyyat" seriyasının baş redaktorunun müavini;
- 1981-2005-ci illərdə bu jurnalın baş redaktoru;
- 1980-1989-cu illərdə Azərbaycan EA İqtisadiyyat İnstitutunun nəzdindəki Dissertasiya Şurasının sədr müavini;
- 1990-1998-ci illərdə isə bu şuranın sədri;
- 2003-2014-cü illərdə Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin üzvü;
- 1986-1991-ci illərdə SSRİ EA Regional İqtisadiyyat Elmi Problem Şurasının üzvü;
- 1982-1992-ci illərdə Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü;
- 1985-1992-ci illərdə Sovet Sülhü Müdafiə Komitəsinin üzvü;
- 1984-1992-ci illərdə Elm və Texnika sahəsində Azərbaycanda Dövlət Mükafatlarının verilməsi üzrə Komitənin üzvü;
- 2000-ci ildən ömrünün sonunadək isə «Общество и экономика» adlı Beynəlxalq elmi jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

A.Nadirov görkəmli tədqiqatçı alim olmaqla bərabər, həm də elmi işləri tədrislə sıx əlaqələndirməyi bacaran bacarıqlı müəllim olmuşdur. O, 50 ilə yaxın Bakı Dövlət Universitetində və başqa ali məktəblərdə müxtəlif iqtisadiyyat və coğrafiya fənlərindən mühazirələr oxumuşdur. Ali məktəblər üçün bir sıra dərsliklərin yazılmasında da müəllif kimi iştirak etmiş və bəzilərinin elmi redaktoru olmuşdur. O, həm keçmiş İttifaq Respublikalarında, həm də bir çox xarici ölkələrdə (Fransa, Hindistan, Türkiyə, İran, Almaniya və i.a) keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycanın iqtisad və iqtisadi coğrafiya elmini layiqincə təmsil etmişdir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq, regional və respublika elmi forum, simpozium və konfranslarının əsas təşkilatçılarından biri olmuş, maraqlı məruzələrlə çıxış etmişdir.

Alimin elmi yaradıcılığında Naxçıvan Muxtar Respublikasının iqtisadi coğrafiyasına həsr olunmuş tədqiqatları da əhəmiyyətli yer tutur. O, Respublikada Heydər Əliyev İqtisadi İdarəetmə Məktəbinin Elmi-Metodiki Şurasının sədri olmuşdu. Onun xidmətləri həm keçmiş SSRİ dövründə və həm də müstəqillik illərində dövlət tərəfindən yüksək qiymətləndirilmişdir:

- O, 1970-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əmək rəşadətinə görə" medalı ilə;
- 1973 və 1977-ci illərdə Azərbaycan LKGİ MK-nin Fəxri Fərmanları ilə;
- 1976-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə;
- 1981-ci ildə Gürcüstan SSR "Bilik" Cəmiyyətinin Fəxri Fərmanı ilə;
- 1986-cı ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Xalqlar dostluğu" ordeni ilə;
- 1987-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əmək veteranı" medalı ilə;
- Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə Azərbaycanda elmin inkişafındakı xidmətlərinə görə 2004-cü ildə "Şöhrət", 2009-cu ildə isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Akademik A.Nadirov 2014-cü il mart ayının 13-də ömrünün 85-ci ilinin tamam olduğu gündə qəflətən vəfat etmişdir. Biz onun həmkarları sözün əsil mənasında öz xalqının



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

böyük oğlu olmuş bu görkəmli alimi, böyük vətəndaş və nəcib insanı, gözəl ailə başçısı, dost və həmkarımızı heç zaman unutmayacaq, onun işıqlı yolunun daim işıqlı olaraq qalması üçün son nəfəsimizədək əlimizdən gələni əsirgəməyəcəyik. Qəbri nurla dolsun!

***AMEA-nın müxbir üzvü, Əməkdar elm***
***xadimi, iqtisad elmləri doktoru, professor*** ***Şahbaz Muradov***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*